# Oxu, tar! Səni kim unudar?




*Müşfiqə BAYRAMLI*

Azərbaycanda mədəniyyətimizin və incəsənətimizin tərəqqisinə böyük diqqət və qayğı göstərilir. Mədəniyyətimizə xüsusi diqqət göstərmiş, bu işlərə dövlət dəstəyini əsirgəməmiş ümummilli lider Heydər Əliyevin qoyduğu ənənəni bu gün Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva ölkə daxilində və xaricində böyük layihələr həyata keçirilməklə davam etdirir. Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti nəticəsində Azərbaycan muğamı, aşıq və tar ifaçılığı sənəti, Azərbaycan xalçası və kəlağayısı UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

### BU KONTEKSTDƏ TARIN TƏBLİĞİ İLƏ BAĞLI GÖRÜLƏN TƏDBİRLƏR DƏ TƏQDİRƏLAYİQDİR

Min ildən də artıq tarixi olan Azərbaycan tarı muğam sənətinin aparıcı alətidir. Muğam üçlüyünün ayrılmaz parçası, musiqi alətlərinin şahı hesab edilən tar cürbəcür formalarda - diz üstdə, sinə üstdə çalınıb. Görkəmli tarzən Sadıqcan 1870-ci illərdə tar üzərində bir sıra uğurlu islahatlar apararaq ona daha 6 sim əlavə edib və tarı təkmilləşdirən sənətkar kimi tarixə düşüb. Həmin vaxta qədər tar sinədə yox, diz üzərində ifa edilib.

Azərbaycan tarı yalnız muğam çalmaq üçün deyil. Bu gün tarın 22 pərdəsi ilə musiqinin bütün janrları üçün istifadə edərək alətin imkanlarını bütün dünyaya çatdırmışıq. Geniş səs diapazonu, aydın səs tembri, mexaniki dalğaların gec sönməsi kimi xüsusiyyətlər tarın, həm də ansambl və orkestr aləti qismində inkişaf etməsinə vəsilə olub.

### TAR DAHİ NİZAMİNİN TƏSVİRİNDƏ

Tarın adına Qətran Təbrizi (XI əsr), Ə.Təbrizi (XIV əsr), Kişvəri, M.Füzuli (XVI əsr) və Qövsi Təbrizi (XVII əsr) kimi klassiklərin şeirlərində də rast gəlmək mümkündür. Eləcə də Azərbaycanın dahi şairi, mütəfəkkiri Nizami Gəncəvi bütün milli alətlərimizə verdiyi yüksək tərifi tarımıza da verib. N.Gəncəvi "İsgəndərnamə" əsərində tarı belə təsvir edir:

*Müğənni, tək bircə gecə də çal tar,*
*Məni bu dar yolda əzabdan qurtar!*
*Bəlkə genişlənsin, açılsın yolum,*
*Köçüm bu daşlıqdan, asudə olum...*

### ÜZEYİR HACIBƏYOVUN TAR ÜZƏRİNDƏ UNİKAL SİNTEZİ

Müasir tar ifaçılığı XX əsrdə daha güclü inkişaf mərhələsinə başladı. Belə ki, 1931-ci ildə Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin təşəbbüsü ilə yaradılmış ilk notlu xalq çalğı alətləri orkestrində tar aparıcı alət kimi əsas yeri tutdu. Məlumdur ki, tar, kamança vaxtilə not ilə çalınmadığına görə, müvafiq not materialı, ədəbiyyat yox idi. Dahi Üzeyir Hacıbəyov tarı ilk milli operamız olan "Leyli və Məcnun"a daxil etməklə not ifaçılığının əsasını qoydu.

Bundan başqa, "Koroğlu" operasında orkestrin tərkibinə xalq çalğı alətlərini (tar, zurna, balaban) daxil edən Ü.Hacıbəyov onların klassik musiqi alətləri ilə üzvi birləşməsini əldə etdi.

Üzeyir bəy göründüyü kimi, tara xüsusi önəm verirdi. O, xanəndə və sazəndə dəstəsinin üzvlərini xarakterizə edərək yazırdı:

*"Baxüsus xanəndə bir çox şeir, qəzəl və təsniflər hifzində saxlamalıdır; tar çalan dəxi dəstgahların yollarını yaxşıca bilməlidir ki, xanəndəyə rəhbərlik etsin".*

Yaxın dostu, dövrünün görkəmli ziyalılarından Mirzə Vəli İsmayılova özünə məxsus bir neçə əşyanı - tar, saat və eynəyini hədiyyə də etmişdi. Bu faktın özü bariz nümunədir. Qeyd edək ki, həmin əşyalar İsmayılovlar ailəsi tərəfindən qorunub saxlanılır.

### MİKAYIL MÜŞFİQİN "OXU TAR" HARAYI

Tarın təbliğatına sovet dövründə ikili münasibət vardı. Mətbuat səhifələrində "oxuma, tar", "rədd olsun tar" məzmunlu şeirlər çap olunurdu. Nə qədər acı olsa da, etiraf edək ki, "Oxuma tar, səni dinləmək istəmir proletar" misraları səslənirdi. O dövrlərdə tar, kamança, qaval əleyhdarları nakam Azərbaycan şairi Mikayıl Müşfiqi dərindən sarsıtmış, qəzəbləndirmişdi. Nəticədə millətin azadlıq səsi olan "Oxu tar" şeiri ərsəyə gəlmişdi:

*Oxu, tar, oxu, tar!*
*Səsindən ən lətif şeirlər dinləyim,*
*Oxu, tar, bir qadar,*
*Nəğməni su kimi alışan ruhuma çiləyim.*
*Oxu, tar!*
*Səni kim unudar?*
*Ey geniş kütlənin acısı, şərbəti,*
*Alovlu sənəti!*

Amma ən yüksək kürsülərdə oturan, milli musiqi alətinə düşmən kəsilənlər belə tarın səsini boğa bilmədilər.

### DÜŞMƏNƏ DAĞ ÇƏKDİRƏN TAR ABİDƏSİ

Deyə bilərik ki, bu gün Xızı rayonunun az qala simvoluna çevrilən tar abidəsi Mikayıl Müşfiqin, eləcə də milli musiqi alətimiz olan tarın təbliğində önəmli rol oynayır.

Vətənpərvər şairimizin "Oxu tar" şeirini tərənnüm edən qeyri-adi abidə Sayadlar kəndində, Mikayıl Müşfiqin xatirə muzeyinin qarşısındakı dağın ətəyində yerləşir, bir növ Xızıya gələn qonaqları salamlayır.

Qeyd edək ki, abidə 2008-ci ildə Mikayıl Müşfiqin 100 illiyi münasibətilə Xızı rayon Mədəniyyət və Turizm şöbəsinin təşəbbüsü ilə yaradılıb. Çay daşı, beton və başqa tikinti materiallarından istifadə etməklə hazırlanan abidənin müəllifi həmin vaxt Mikayıl Müşfiqin xatirə muzeyində çalışan Camal Hüseynovdur.

### MÜASİR TAR İFAÇILIQ SƏNƏTİ

*Ata-babadan bizə yadigar qalan tarzənlik sənəti bu gün layiqincə yaşadılır. XX əsrdə tar sənətinin mahir biliciləri, bu alətin gözəl ifaçıları yetişib. Qurban Pirimov, Bəhram Mansurov, Hacı Məmmədov, Həbib Bayramov, Əlikram Hüseynov, Sərvər İbrahimov, Ramiz Quliyev, Möhlət Müslümov, Zamiq Əliyev və s. fədakar insanlar hesabına daim inkişaf edib.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti üzrə hazırlanmışdır**